**Sultanova Nuranə Saleh qızı** [134]

# YENİ YANAŞMA METODLARI

Daha böyük addımlarla yeniləşən dünyamızın inkişafını şərtləndirən amil yeni şəxsiyyətin formalaşması, inkişafi, mədəni potensialının maksimum artırılması, müstəqilliyimiz, hər cür çətinlikdən çıxış yolu axtarmağı bacaran yeni şəxsiyyətlər yetişdirmək yolunda maraq yenilik etməklə, təhsil prosesindəki köhnə metodlardan aralanmaq, mütərəqqi yeniliyə can atmaqdır.

"Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nda göstərilir: "Təhsil sistemində islahatın zərurililiyi respublikanın sosial-iqtisadi, ictimai-siyasi və dövlət quruluçunda baş vermiş köklü dəyişikliklərlə bağlıdır. İndiki mərhələdə təhsil sistemi inzibati – amirlik sisteminə əsaslanan totalitarizmdən azad, açıq, demokratik və çoxşaxəli formada qurulmalıdır." [2, 2007, səh. 13.]

Azərbaycan müstəqillik qazanandan sonra təhsil sistemini də milli maraqlara uyğun qurmaq imkanı qazandı. Cəmiyyətin tam halında movcudluğunu və inkişafını əsas sosial sahə kimi təhsil sistemi təmin edir. Təhsil sistemini tənzimləyən müvafiq hüquqi bazanı yaratmaq, Azərbaycan Respublikası Konstitusiyasında, Azərbaycan Respublikası Prezidentinin 15 iyun 1999-cu il 168 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat proqramı"nda təsbit olunmuş tələblərin həyata keçirilməsidir.

Müasir dərs, ənənəvi dərsin rasional "toxumlarını" inkar etmir, lakin müasir dərs məzmun, forma, metod və vasitələrlə daha çox əhatə olunur. Köklü islahat və dəyişiklərlə təmin olunan konseptiyasının üstünlüyü məhz ondadır ki, konsepsiya şəxsiyyətin formalaşdırılmasını təhsil sisteminin başlıca vəzifəsi hesab edir. Həyatımız üçün dəyərli, ləyaqətli şəxsiyyətlərin yetişməsində, yüksək bilik və bacarığa malik, vətənini sevən, müstəqil düşüncəyə və yaradıcı təfəkkürə yiyələnmiş, milli, bəşəri dəyərlərə hörmət edən insanların istiqamətlənməsində hər zaman olduğu ağırlığı üzərinə götürmüş humanitar fənnlərin, əsasən, Azərbaycan dili və ədəbiyyat fənnlərinin üzərinə düşür. Standart nəticələr sxolastik şəkildə onlara çatdırılmır. Müasir təhsil konsepsiyasının üstünlüyü məhz bundadır, bu prosesdə təlimin struktur dəyişmələri meydana çıxır, hafizə unudulmamaq şərti ilə idrak proseslərini də dərinləşdirir, öyrəncilərdə müstəqil düşüncə və mühakimə yürütmə vərdişləri, əqli nəticəşıxarma bacarıqları formalaşdırır.

Tanış olduğumuz təlim metodlarının yeganə məqsədi, tədqiqat sahəsində fəaliyyəti möhkəmləndirmək, qrup halında ünsiyyət mədəniyyətinə yiyələnmək, fikir bölüşməyi bacarmaq, dəqiq nəticə çıxarmaq vərdişi qazanmaq və ən ümdəsi sonda müəyyən biliklər əldə etməkdir. Bunları əldə etmək üçün müxtəlif təlim metodlarından istifadə etmək vacibdir.

K a r u s e l - bu da təlim metodlarından biri sayılır. İri kağız üzərində yazılan suallar qrupda cavablanır, sonda müəllimə ötürülür. Cavab müzakirəyə çevrilir.

K l a s t e r (çaxələndirmə). Müəllim lövhədə cızdığı dairədə yazdığı söz və ifadə ilə bağlı fikir söyləməyi tapşırır. Yazılan hər söz xəttin köməyi ilə ümumi sözə birləşdirir. Tələb olunan vaxt bitincə cavablar müzakirə olunur və həyata keçirilir.

V e n n diaqramı. "Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur. Venn diaqramından istifadə prosesi aşağıdakı mərhələlər üzrə aparılır. Müqayisə olunacaq əşya və hadisələr müəyyənləşdirilir".

M ü z a k i r ə. Bu metod zamanı mövzu ətrafında ideya, məlumat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsi, problemin həlli yolu, düzgün qərarların verilməsi, mövzuya münasıbətdən irəli gələn sualların seçilməsi nəzərdə tutulur. Bu metodun düzgün qurulması öyrəncılərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir, onlarda müstəqil münasibət bildirmə vərdişini gücləndirir.

L a y i h ə l ə r i n  h a z ı r l a n m a s ı. Təhsil də keyfiyyətli tədrisin həyata keçirilməsində istifadə olunan metodlardan biri kimi məzmunlu mövzuların müstəqil şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Layihələrin hazırlanması uzun müddət tələb edir. Layihələr müəllimin verdiyi mövzular əsasında seçilir. Mövzu seşimi qrupun səviyyəsinə uyğunlaşdırılır, problem aydınlaşır, konkretləşir. Bu üsul da öyrəncilən bir-birinə doğmalaşdırır, məktəbkənarı insanlarla yaxınlaşdırır.

D e b a t l a r. Bu günün baxış bucağından yanaşdıqda ən vacib üsullardan sayılır. Çünki debatlar demokratik ideyaların inkişafina və bu yolda mübarizliyə təkan verir. Debatlar insanların deyil, ideyaların qarşıdurmasıdır. Debatların ən vacib elementi tənqidi düşüncə tərzini formalaşdırmaq, qarşı tərəfin fikirlərinə əsaslı arqumentlərin tapılmasıdır. Debatlar, əsasən, arqumentlərin əsaında, qısa və dürüst mövzunun ifadəsindən, əsaslı dəlil və arqumentlər qarşıdurmanın yeganə həlli vasitəsi kimi mövzunun qısa, dürüst ifadəsindən danışır, ən önəmli xüsusiyyət gözəl nitqə malik olmaq, ən gozəl sözlərlə, təsdiqini tapır, qətiləşdirilmiş ifadələrin gücü ilə qarşı tərəfin arqumentlərini təkzib etməkdir. Burada tənqidi düşüncənin rolu böyük, demokratik dövlətin, gələcəyin qətiyyətli vətəndaşı kimi, siyasi hadisələri başa düşmək, fikir mübadiləsi aparmaq yolunda ən gözəl metodiki üsuldur.

K u b l a ş d ı r m a. Bu metod vasitəsilə müzakirə olunacaq mövzu müəyyən edilir. Düzəltdikləri kubun üzərində qruplar və hər qrupun qarşıya qoyduğu məqsəd, müqayisə, təhlil, tətbiq, təsvir aydınlaşdırılır. Mövzunun hərtərəfli öyrənilməsinə şərait yaradılır. Öyrəncilər təlimatlanır, ümumiləşdirmədən sonra əsas nəticə alınır, təqdimatın əsas göstəricisi lövhədən asılır. Burada əsas fikir tənqidi və məntiqi təfəkkürü inkişaf etdirmək və hər məsələni öz düşündürücü baxış bucağından məqsədə yönləndirməkdir.

[134] Bakı Slavyan Universiteti. nurane.sultanova15@gmail.com Magistrant

Z i q z a q. Tədris prosesində həcm etibarı ilə böyük əsərlərin təhlili zamanı vaxtdan səmərəli və qənaət etmək məqsədi ilə həyata keçirilən metoddur. Əsasən, yuxarı siniflər arasında həyata keçirilir. Mətn hissələrə bölünür, nömrələnir. Qruplar da təşkil olunandan sonra mövzu ətrafında hazırlanmış suallar əsasında tapşırıqlar həyata keçirilir. Hər qrupun eksperti öz tapşırığını həyata keçirdiyini və əldə etdiyi informasiyanı bir-biri ilə bölüşür. Ortaya çıxarılan informasiya əsasında mətn üzərindəki tədqiqat işi bütovləşdirilir.

B e y i n h ə m l ə s i. Ədəbiyyat dərslərində az vaxt içərisində problemli vəziyyətin aydınlaşdırılması, öyrəncılərin yeni biiklərinin ortaya çıxması üçün müzakirə olunan məsələyə maraq oyadır. Öyrəncilər arasında fəallıq artır, ideyalar ətrafında güclü müzakirələr başlayır, irəli sürülən təklif və ideyalar olduğu kimi heç bir şərh verilmədən qeyd olunur. Müzakirə aparılan da maraqlı, elmi fikirlər, mətnin məqsədinin açılmasında əsas rolu olan ideyalar seçilir.

B İ B O. Öyrəncilər arasında əvvəlki bilik və maraqlar əsasında həyata keçirilir, məqsəd yeni və köhnə biliklər arasında yeni əlaqələrin qurulması, bu günki problemin həlli yollarının araşdırılmasıdır. Bu priyom məqsədyönlü mahiyyət daşıyır. Yəni nəyi bilirik, nəyi bilməliyik, nəyi öyrəndik və nəyi necə öyrənməliyik. [ 3,səh.99]

Ümumiyyətlə, yeni üsullu dərs prosesində bu və digər metodların məqsədi tədrisin keyfiyyətinin, səmərəliliyinin, öyrədiciliyinin keyfiyyətini yüksəltmək üçün maraq dairəsini genişləndirməkdir.

Müasir təhsilin aparıcı istiqaməti öyrəncilərin fərdi xüsusiyyətlərini nəzərə alaraq onların yaradıcı təfəkkürünü inkişaf etdirmək, dərsin məzmununu istifadə məqsədlərinə uyğun qurmaq bacarığı yaratmaq, tapşırığa aid lazımi məlumat vermək, əməkdaşlığa güvənən fəaliyyətə şərait yaratmaq yüksək nəticə qazandıran bir strategiyadır.

**Əbəbiyyat**


1. Abbasov Ə. Əhmədov A.Ümumi təhsildə inteqrasiya: müasir yanaşmalar// Azərbaycan müəllimi, 2013, 10 may, 7 səh.
2. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007, 448 səh.
3.Cəbrayılov İ. Müasir ali təhsil və tələbə şəxsiyyətinin formalaşdırılmasının bəzi məsələləri. // Azərbaycan məktəbi: elmi-nəzəri, pedaqoji jurnal, 2017, №1. Səh. 99-104.



**Açar sözlər:** təhsil, müsir təhsil, yeni təlm metodları, yeni yanaşma, hüquqi baza.

**Key words:** education, modern education, new training methods, a new approach, legal framework.

**Ключевые слова:** образование, современное образование, новыеобучения, новый подход, правовая база.


**XÜLASƏ**


Yeni üsullu dərs prosesində bu və digər metodların məqsədi tədrisin keyfiyyətini, səmərəliliyini, öyrədiciliyini yüksəltmək, maraq dairəsini genişləndirməkdir.

Müasir təhsilin əsas istiqaməti, həm də öyrəncilərin fərdi xüsusiyyətlərini, yaradıcı təfəkkürünü inkişafı ilə bərabər, dərsin məzmununu duymaq bacarığı yaratmaq, tapşırığı anlamaq, əməkdaşlığa güvənən şərait yaratmaq və daha yüksək nəticə qazandıran bir strategiyaya nail olmaqdır. Yeniləşən dünyanın inkişafını şərtləndirən amiltəhsil prosesindəki köhnə metodlardan aralanmaq, mütərəqqi yeniliyə can atmaqdır. Yeni təlim metodlarının yeganə məqsədi, fəaliyyəti möhkəmləndirmək, qrup halında ünsiyyət mədəniyyətinə yiyələnmək, fikir bölüşməyi bacarmaq, dəqiq nəticə çıxarmaq vərdişi qazanmaq və ən ümdəsi sonda müəyyən biliklər əldə etməkdir. Bunları əldə etmək üçün yeni təlim metodlarından, karusel, klaster, Venn diaqramı, mühazirə, layihələrin hazırlanması, debatlar, kublaşdırma, ziqzaq, beyin həmləsi, BİBO və s. istifadə etmək vacibdir.


**Резюме**

**Методы нового подхода в современном образовании**


Вновом учебном процессецелью этих и других методов является повышение качества, эффективности и образовательной ценности обучения, а также расширение сферы интересов.

Основным направлением современного образования является развитие индивидуальных особенностей и творческого мышления обучающихся, а также формирование у них умения понимать содержание урока, поставленную задачу, создавать условия, ориентированные на сотрудничество, и вырабатывать стратегию, дающую более высокие результаты. Фактором, определяющим развитие современного мира, является отказ от старых методов в образовательном процессе и стремление к прогрессивным инновациям. Единственная цель новых методов обучения - усилить активность, овладеть культурой группового общения, уметь делиться идеями, выработать привычку делать точные выводы и, самое главное, в конечном итоге получить определенные знания. Для достижения этих целей важно использовать новые методы обучения, такие как карусели, кластеры, диаграммы Венна, лекции, подготовка проектов, дебаты, кубирование, зигзаг, мозговой штурм, BIBO и т.д.


**Summary**

**Methods of a new approach in modern education**


The purpose of these and other methods in the new learning process is to improve the quality, effectiveness and educational value of learning, as well as to expand the field of interests.

The main focus of modern education is the development of students' individual characteristics and creative thinking, as well as the formation of their ability to understand the content of the lesson, the task set, create conditions focused on cooperation, and develop a strategy that gives better results. The factor determining the development of the modern world is the rejection of old methods in the educational process and the pursuit of progressive innovations. The only purpose of the new teaching methods is to increase activity, master the culture of group communication, be able to share ideas, develop the habit of drawing accurate conclusions and, most importantly, eventually gain certain

knowledge. To achieve these goals, it is important to use new learning methods such as carousels, clusters, Venn diagrams, lectures, project preparation, debates, cubing, zigzag, brainstorming, BIBO, etc.

**Rəyçi: dos. L.Ələkbərova**

**Aydan Elburus qızı Həsənzadə** [135]